# Özümlə Söhbət

**Məmməd Araz**

© Seçilmiş əsərləri. 2003

—Hara tələsirsən?
—Bilmirəm!
Bir onu bilirəm: sürət gərəkdir!
Atını at getməz qayalıqlara,
Quşqonmaz zirvəyə sürmək gərəkdir!..
—Zirvədə nə var ki?
—Birincilik var!
Ordan aşağıya baxmaq şöhrəti…
—Bəs ora tələsik qalxmaq şöhrəti?
Yorular, büdrərsən!
—Dartan tapılar!
—Dartılar yabılar!..
—Görmüşəm yedəkdə qalxan çox atı…
—Yəqin görməmisən bu zarafatı:
Qırır yüyənini qəfil bir tufan:
Baxır gülə-gülə:
Bir daş sayağı,
Üzüaşağı
Necə də sürətlə yuvarlanırsan…

1967.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Səkinə İsgəndərova
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: may, 2004